Ədalət.- 2021.- 2 oktyabr. S. 6.



# QEYRİ-SƏLİS MƏNTİQ KƏHKƏŞANINDA KAMİLLƏŞƏN ŞƏXSİYYƏTİN UCALIĞI

***İFTİXAR***
***Sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi***

**(əvvəli ötən sayımızda)**

**Ermənilər tam arxayın düşdükdən sonra ki, teatrın dağılmaq təhlükəsi qaçılmazdır, onda gözə kül üfürmək məqsədi ilə teatrın fəaliyyətinin davam etdirilməsində guya maraqlı olduqlarını göstərməyə çalışdılar. Erməni millətçi hökumət məmurları həssas bir oyun oynadılar. Ermənistanda fəaliyyət göstərən, Kommunist Partiyasının orqanı olan yeganə azərbaycandilli "Sovet Ermənistanı" qəzetində yenicə jurnalistlik fəaliyyətinə başlamış və elə ilk gəlişindən böyük ümidlər verən gənc, istedadlı bir jurnalisti - Hidayət Orucovu, öz doğma peşəsindən ayıraraq, heç bir teatr səriştəsi olmadığı halda, hələ gənc ikən sözün əsl mənasında bataqlığa atmaq məqsədi ilə, İrəvan Teatrına rəhbər vəzifəyə təyin etdilər.**

Əslində gənc Hidayətin yerində kim olsaydı öz isti yuvasından - respublikada böyük nüfuzu olan, qılıncının dalı-qabağı iti kəsən, nə qədər olmasa da dövlətin bütün imtiyazları və qayğısı ilə əhatələnən redaksiyadan heç kim ixtisasına uyğun olmayan və taleyi naməlum olan bir müəssisəyə rəhbər vəzifəyə getmək üçün cürət etməzdi. Gənc Hidayət düşündü, daşındı, əslində yenicə başladığı və az zaman kəsiyində əldə etdiyi uğurlu jurnalistlik karyerasını yarımçıq dayandıraraq, öz taleyini böyük təhlükə qarşısına atmaqdan çəkinməyərək, milli mənafe xatirinə, dədə-babalarımızın min bir əziyyətlə o günə qədər gətirib çatdırdıqları və böyük çətinliklə bərpasına nail olunan, bir də qapadılsa, güman ki, haçansa yenidən bərpasına nail olunub-olunmayacağı şübhə altında olan bu qocaman sənət ocağının "ölüm" təhlükəsindən qurtarmaq üçün razılıq verdi; bu razılıq zamanın yeni inkişaf meyllərinin də formalaşmasına təkan vermiş oldu. Nəzərə alsaq ki, onun şəxsiyyəti arealında perspektivi elə gənc yaşlarından görünürdü, belə qənaətə gəlmək olar ki, həqiqətən də onu qarşıda daha yüksək məqamlar gözləyirdi. Tanınmış psixoloq A.Q. Maslov qeyd edirdi ki, "...hər bir şəxsiyyətin gələcəkdə mövcud olması üsulu ali mənəvi dəyərlərə canatma olmalıdır və əgər cəmiyyət belə bir şəxsi yetişdirə bilməsə, axırı yoxdur. Fərdin şəxsi niyyətləri, ideal istəkləri onun davranışının məzmununu təşkil edir, fəaliyyət motivasiyasını formalaşdırır" (A.Q.Maslov).

***Doğrudan da həmin dövrə Hidayət şəxsiyyətinin bu günkü ucalıq prizmasından yanaşsaq, əslində bir tərəfdən bu perspektivi görən, Hidayətin kəskin qələminə, onun yeni nəfəslə boy verən şeirlərinə, təmkinli, cürətli xasiyyətinə, hər kəsə nəsib olmayan layiqli görkəminə qısqanclıq mövqeyindən baxan həmkarları, digər tərəfdən də onun perspektivindən təhlükəyə düşən erməni millətçi məmurları gənc Hidayətin dördüncü hakimiyyət meydanından uzaqlaşdırılmasını təmin etmək üçün, onun daha tez zərbəyə məruz qala biləcəyi bir işə, teatra direktorluq vəzifəsinə getməsinə çalışdılar və bu məsələ baş tutdu.***

### *Redaksiyaya ilk gəlişindən*

özünün fərqli düşüncəsi ilə seçilən kəskin qələmli jurnalist, təmkinli və istedadlı gənc kimi və gələcəkdə Ermənistan hakim dairələrinə ciddi narahatçılıq törədə bilən nüfuzlu bir azərbaycanlı kimi görünən, erməni qənimçisinə çevrilməsindən təhlükələnən erməni şovinistləri onu qalmaqallı və artıq hərənin bir tərəfə pərən-pərən düşdüyü, darmadağın olmaq həddinə çatmış, qeyri-peşəkar bir gənc əlində bərpası mümkün olmayan bir müəssisəyə - teatra, oradaca itbat olması üçün rəhbər vəzifəyə göndərərkən, onların ağlına belə gəlməzdi ki, 24 yaşı hələ tamam olmamış, heç bir teatr və idarəçilik təcrübəsi olmayan, lakin gözlənilməz gedişlərlə ətrafı heyran qoya bilən qeyri-səlis düşüncə sahibi Hidayət Xuduş oğlu Orucov bu meydanda, on altı il müddətində teatrı, heç bir şəraiti olmadığı halda Qafqazda nümunəyə çevriləcək bir sənət ocağı halına gətirmək üçün teatrda elə bir islahat başlayacaq ki, bu islahatın nəticəsində İrəvan Teatrı bütün manelərə, çətinliklərə və şəraitsizliyə rəğmən, yarandığı gündən bəri heç vaxt yüksəlmədiyi bir intibah zirvəsinə boy verəcək, hətta bu islahat o zamanlar Ermənistan Respublikası Mədəniyyət Naziri tərəfindən erməni teatrlarına nümunə kimi göstəriləcəkdi.

***Lakin söylənilən və göz önündə olan bu uğurlu yüksəliş bir həqiqədir və bu həqiqət İrəvan Teatrının taleyində teatrın kollektivi üçün Hidayət müəllimin qazandırdığı mühüm hadisə kimi əbədi yaşayan bir tarixdir.***

Fikrimcə bu tarix - Hidayət Orucovun redaksiyadan İrəvan Teatrına deportasiya edilməsi, Qafqaz teatrları sırasında birincilər cərgəsinə yüksələn İrəvan Teatrının həqiqətən də istər öz məhvərindən çıxarılmış ənənələrinin bərpa olunması, istər yeni repertuar planının çağdaş dövrə uyğun mərhələyə çatdırılması, istər truppanın peşəkarlaşdırılması və istedadlı mütəxəssislərlə yetkinləşdirilməsi, istər Azərbaycan ədəbi nümunələrinin, o cümlədən gənc dramaturqların teatra cəlb olunması və bununla da yeni dramaturq nəslinin yetişməsini təmin etmək, Azərbaycan teatr və ədəbi mühiti ilə sıx əlaqələrin yaranmasına nail olmaq, teatrda istər inzibati və texniki kadrların püxtələşməsi üçün sağlam iş mühitinin yaradılması, istər Ermənistanda yeganə Azərbaycan teatrı olduğu üçün çoxjanrlı tamaşalar hazırlanması və bununla da Qərbi Azərbaycanda soydaşlarımızın bütün cəhətlərdən mənəvi tələbatını ödəməyə çalışmaqla azərbaycanlıların torpağa bağlılıqlarına da istiqamətdə təminat yaratması, istər milli mədəniyyətimizin başqa xalq arasında yüksək meyarda təmsil olunmasını qoruyub saxlanması nöqteyi nəzərindən, istər əvvəlki illərdə teatrın yaşaması üçün fədailik göstərmiş insanların müqəddəs əməlinin şərəflə davam etdirilməsi məqsədinə can yanğısı ilə yanaşaraq qorunmasını təmin etmək kimi vacib məsələlərin həyata keçirilməsi baxımından İrəvan Teatrının taleyinə Tanrı tərəfindən göndərilmiş bir qismət idi.

Baxın, yuxarıda sadalanan bütün çoxşaxəli mətləblərin əsrarəngizliyi birmənalı şəkildə Hidayətin bir yaradıcı insan və şəxsiyyət olaraq qeyri-adiliyinin, qeyri-səlisliyinin təcəssümüdür.

Çox ola bilsin ki, onun redaksiyaya gəlişindən əndişələnən və yerini itirə biləcəyindən təhlükəyə düşən, sonradan onun İrəvan Teatrına - bataqlığa getməsinə sevinən bəzi insanlar, redaksiyada onu yüz cür telə təhlükəyə salmağa cəhd edəcəkdilər. Və buna nail ola da bilərdilər və ya hər şey tərsinə də baş verə bilərdi. Bunlar bir illüziya olaraq bizə naməlum qalır. Lakin həqiqət burasındadır ki, redaksiyadan ayrılma, Hidayət müəllimi özünün fəhmi və fərasəti hesabına uğurlu bir ömür yolunun yolçusuna, İrəvan Teatrını Qafqazda nüfuzlu bir sənət ocağına çevirdi, və bu teatr "...Azərbaycan ədəbi-mədəni mühitinin ayrılmaz parçası kimi movcudluğunu qoruyub saxladı" (Hidayət).

Vəzifəsinə mənliyi kimi münasibət göstərən bu gənc vətənpərvər insan Azərbaycan teatr və ədəbi mühitinin diqqətini İrəvan Teatrına cəlb etdirdi. Teatrı Bəxtiyar Vahabzadə, Nəbi Xəzri, Nəriman Həsənzadə, Anar, Əkrəm Əylisli, Mehdi Məmmədov, Ağakişi Kazımov və bu kimi bir sıra nüfuzlu ziyalıların yaradıcılıq meydanına çevirdi. Əlaqələrin inkişaf miqyası genişləndikcə İrəvan Teatrı mərkəzin (Moskva) də diqqətini çəkməyə başladı. Mötəbər teatr xadimləri mərkəzdən İrəvan Teatrının tamaşasının sorağı ilə İrəvana təşrif buyururdular və onlar, heç bir şəraiti olmadığı halda belə yüksək bədii keyfiyyətə malik böyük tamaşaların ərsəyə gətirilməsindən heyrətə düşdüklərini açıqca etiraf edirdilər. Bu uğurlardan - mərkəzdən gələn qonaqların erməni teatrlarının deyil, məhz Azərbaycan teatrının tamaşalarına diqqət göstərməklərindən narahat olan erməni məmurları, mötəbər yığıncaqlarda bütün şəraitlərlə təmin olunmuş və dövlətin bütün qayğıları ilə əhatələnmiş erməni teatrlarına İrəvan Azərbaycan Teatrının təcrübəsindən yararlanmağı tövsiyyə edir, hətta erməni teatrlarının rəhbərlərinə təpinirdilər.

### *Bu gerçəklik*

isə, Hidayətin uca şəxsiyyətinin və bu ucalığın timsalında İrəvan Azərbaycan Teatrının, eləcə də, İrəvan mədəni mühitinin tikanlı kollar arasından boy verib yüksələn Xan Çinara bənzər möhtəşəmliyinin



miqyasının göstəricisi idi. Kollektivin fəaliyyətini məhdudlaşdırmaq istiqamətində görülən tədbirlərə etiraz səsini ucaldan, yüksək təşkilatçılıq qabiliyyətinə malik Hidayət direktor kimi uzun illər teatrda səmərəli fəaliyyət göstərdi, nəhəng imperiyada təcrübəli teatr rəhbərlərindən biri kimi geniş aspektdə tanındı.

***Beləliklə, 1978-ci ilə qədər yüksək nailiyyətlər əldə edən İrəvan Teatrının dövlət statusu almasının 50 illik yubiley tədbirlərinin zamanı yetişdi. Şübhəsiz ki, o vaxtlar bu yubileyin keçirilməsi çox müşkül məsələ idi. Şovinist erməni məmurları İrəvanda Azərbaycan teatrının nəinki yubileyinin, hətta kiçicik bir tədbirin belə keçirilməsinə qısqanclıqla baxırdılar. Həm də bu tədbir Ermənistan Sovet Sosialist Respublikasının çıxaracağı fərmanla həyata keçməli idi. Belə çətin bir məsələ, Ermənistan Respublikasından boy verən, bütün tərəflərdən uca görünən teatrın rəhbərinin əlahiddə nüfuzu bahasına baş gəldi. 1978-ci ildə İrəvan Teatrının afişaları Bakının küçələrini bəzədiyi kimi, tamaşaları da Tağıyev Teatrının səhnəsində teatr ictimaiyyətini vəcdə gətirmişdi. Qərbi Azərbaycanda, erməni millətçiləri arasında, şəraitsiz bir binada, yarandığı gündən köçəri həyat keçirən bu teatr öz tarixi keçmişi ilə, qoruyub saxladığı ənənələri, yüksək professionallığı və dəyərli sənət nümunələri ilə sanki böyük imtahan qarşısında idi. İmtahandan əla qiymətlərlə çıxıb tamaşaçıların uzun müddət xatirəsində iz buraxan bu teatr (o anlar mənim yaxşı yadımdadır!) sözün əsl mənasında qürurla öz dəyərini aldı.***

O vaxt Respublikaya rəhbərlik edən möhtərəm Heydər Əliyevin diqqət və qayğısı ilə teatrın bir neçə aktyoru fəxri adlarla təltif olundu. Bu, məhz Hidayət Orucovun teatrda apardığı düzgün iş prinsipinin, məhz teatrı qəlbən sevərək ona can yanğısı ilə münasibət göstərməsinin, bir də milli qürurunun ucalığına verdiyi dəyərin nəticəsi idi. Axı belə olmasaydı, bu teatr Hidayət Orucovun rəhbərliyi zamanı öz intibah dövrünü yaşamazdı, uzunillik tarixinin mükəmməl salnaməsinin zirvəsinə qədəm qoya bilməzdi. "Kim ki, zamanın axınından öyrənməyib, o daha heç bir müəllimdən heç nə öyrənə bilməyəcək" Hidayətin öyrəndiklərini ona, ana bətindəcə Allah tərəfindən verilən qeyri-adiliyin qüdrəti və həyata iti zəkası ilə baxışının mənimsəmə bacarığı nəsib etmişdi. Onu da qeyd edim ki, bu gün də teatrımız Hidayət müəllimin apardığı istiqamətdə öz yolunu davam etdirir və teatrımızın səhnəsində görkəmli ədibin əsərləri şövqlə oynanılır. Biz, sənətkarın yeddi pyesini ("Məhəbbət yaşayır hələ...", "Durnalar qayıdanda" adı altında "Məni qınamayın", "Bu dünyanın adamları", "Vətəndən ağırdı vətənin yükü", "Burdan min atlı keçdi" "İrəvanda xal qalmadı", "Ömürdən uzun gecə") tamaşaya hazırlamışıq. Həmin tamaşalar mövzu müxtəlifliyi, məzmun dərinliyi, estetik qayəsi, fəlsəfi yükü, bədii tutumu, milli koloriti və rəngarən xüsusiyyəti ilə tamaşaçı rəğbəti qazanmaqla, səhnəmizin ən uzunömürlü tamaşaları sırasında yer alır.

Hidayətin həyat və yaradıcılığı, ədəbi-bədii, publisistik və ictimai-siyasi fəaliyyəti ilə tanış olduqda inanmaq olmur ki, kiçik zaman kəsiyində adi bir insan bu qədər böyük iş görə bilər. Mədəniyyətimizin, ədəbiyyatımızın elə bir sahəsi yoxdur ki, Hidayətin orada izi olmasın. O, hansı sahədən keçibsə, orada özünəməxsus, unudulmaz iz qoyub. "İz salmaq, iz qoyub getmək isə hər adama nəsib olmur. Bu iş ancaq yaradıcı şəxsiyyətlərin payına düşür" (A.Xələfov). Həm də, Hidayət müəllim kimi dərin zəkaya malik, qeyri-adiliyi ilə seçilən yaradıcı şəxsiyyətlərin...

### *İrəvan Teatrı*

öz varlığının bir hissəsi hesab etdiyi Azərbaycanın böyük ziyalısı, nəhəng şəxsiyyəti, özünəməxsus üslubda yaratdığı monumental bədii yaradıcılığı ilə seçilən, həmişə böyük hisslər və duyğularla yaşayan Hidayət müəllimin yüksək amallarının, milli təəssübkeşlik məfkurəsinin, böyük azərbaycançılıq ideyalarının, məhz İrəvan Teatrının ürək çırpıntıları ilə birgə döyündüyünü həmişə hiss edir. Hidayət müəllimin zəka bəhrəsi ilə formalaşan və bu gün də həmin yolla irəliləyən İrəvan Teatrının bu qiymətli xüsusiyyəti ümummilli ideyalara xidmət baxımından çox önəmlidir və böyük şəxsiyyətlərimiz məhz bu cür təəssübkeşliklə öz həqiqi kimliyini bizi sevən və sevməyənlərə qəbul etdirə bilir. Yeri gəldikcə Hidayət müəllim üçün doğma olan bu sənət ocağına öz mənəvi qayğısı ilə kollektivin hər an yanında olduğunu hiss etdirən böyük yazıçı yaratdığı yeni pyesləri ilə teatrın repertuarının zənginləşməsinə köməklik göstərir. Hidayət müəllim böyük amallarla yaşayan sənətkar olaraq, bu teatrın təəssübkeşliyinə hər zaman, özünə, öz şəxsiyyət dəyərinə münasibət kredosu kimi baxır.

***Mövzuları yaşadığımız cəmiyyətdən götürülmüş dram əsərlərinin tamaşalarının müvəffəqiyyətlə keçməsi, təbii ki, ilk növbədə müəllifin "həyat, cəmiyyət, insan haqqında qayğıkeş, həssas sənətkar və vətəndaş mühakimələri ilə" dəyərlidir. Dramaturq Hidayətin dram yaradıcılığı poetik yaradıcılığının üzvi davamı olduğu qədər, həm də Azərbaycan teatrının keçən əsrin 60-cı illərdən sonrakı real durumu və tələbləri ilə bilavasitə bağlıdır. "Dramaturgiya Hidayətin yaradıcılığında adi sınaq deyil, o, bu janra həmişəlik gəlmişdir, başqa sözlə desək, şair Hidayət adının qonşuluğunda bir ad məskən salmışdır - dramaturq Hidayət!". (İ.Kərimov). Çünki qeyri-səlis düşüncə sahiblərinin bütün yaradıcılıqları boyu istəsələr də istəməsələr də bədii təfəkkür bazalarından istiqamət götürən düşüncə arealları çoxşaxəli və rəngarəng bədii-polifoniyada əhatələnir. Məhz Hidayət müəllimin yaradıcılığında bu bədii-polifoniya aydın şəkildə görünür.***

Hidayətin bütün pyeslərində müəllifin fəal həyat mövqeyi güclüdür. Onu bir dramaturq kimi sevdirən əsas cəhət cəmiyyət və şəxsiyyət problemini obrazların psixoloji münasibətlərində axtarmasıdır. Dramaturq şəxsiyyətin mənəvi-əxlaqi xüsusiyyətlərini onun ictimai fəaliyyətinin siyasi mahiyyəti ilə vəhdətdə götürür. Fikir və ifadə aydınlığı Hidayət dramaturgiyasının mühüm cəhətidir. Sadəlik, qeyri-səlis təfəkkür rəngarəngliyi və səmimilik onun ustad imzasıdır...

***Yazıçı həyat hadisələrini mürəkkəb qarşılıqlı əlaqələrilə, insan xarakterlərini isə müxtəlif, təzadlı xüsusiyyətlərilə birlikdə araşdırır.***

### *Dramaturqun pyeslərinin mövzuları,*

***mövzuya yanaşma və onu təhliletmə yolları, cəmiyyətin üzvü olan, müəllifin poetik dünyasını, saf və səmimi arzularını təcəssüm etdirən qəhrəmanları çağdaş dövrümüzdə də öz yaşarlılığını qoruyub saxlaya bilirlər. Həyat, cəmiyyət, şəxsiyyət haqqında həssas sənətkar və vətəndaş mükalimələri aparıcı mövzu kimi Hidayətin bütün əsərlərində mövcuddur. Hidayətin dramaturgiyası poeziyasının üzvi davamı kimi, həm də bu dramaturgiyanın qaldırdığı problemlər ədəbi və bəşəri olduğu səbəbindəndir ki, onun pyesləri müasir Azərbaycan dramaturgiyası və teatrı kontekstində də aktual edir. Dramaturq şəxsiyyətin mənəvi-əxlaqi xüsusiyyətlərini onun ictimai fəaliyyətinin siyasi mahiyyəti ilə vəhdətdə götürür. Hidayətin dramaturgiyası ötən əsrin ikinci yarısı və yaşadığımız əsrin əvvəllərində milli teatr hərəkatının genişlənməsində özünəməxsus rol oynadığını, milli mədəniyyətimizin inkişafına əvəzsiz xidmət etdiyini isbatlayır.***

Azərbaycanın son onillərdə yaşadığı mürəkkəb tarixi prosesləri şəxsi taleyinin bədii süzgəcindən keçirən Hidayət yaradıcılığının qayəsini vətəndaşlıq pafosu, milli mənsubiyyət, torpağa, elə-obaya bağlılıq, vətən təəssübkeşliyi təşkil edir. Həqiqətən, ötən əsrin 80-90-cı illərində Ermənistanın Azərbaycana hərbi təcavüzünün qanlı-qadalı günlərində respublikamızın sayılıb-seçilən ziyalıları, dövlət xadimləri, sənətkarları arasında Hidayətin publisistikası öz kəsəri, sərtliyi və mübarizliyi ilə başqalarından kəskin fərqlənirdi. O, sözün vaxtını da, vaxtın, zamanın sözünü də məqamında seçə bilir. Çünki dönə-dönə vurğuladığımız kimi Hidayət yaradıcılığındakı cəsarət hökmü həmişə öz qüdrəti ilə fərqlənmişdir. Nəhəng bir dövlətin quruculuq prinsiplərinin puç olduğunu həmin dövlətin dünyaya geniş meydan oxuduğu dövrdə, heç bir cəzadan qorxmayaraq önün ideya daşıyıcılarının gözlərinin içinə söyləmək və kəskin mövqedə dayanmaq, bir müəllif üçün nə qədər çətin də olsa, belə mövqe həmin şəxsiyyətin idrakında bərkimiş həyat amalıdır və Hidayət Orucov bütün dövrlərdə öz amalına sədaqətini itirməmişdir. Ona görə də Hidayət yaradıcılığı və şəxsiyyəti hər zaman ucada dayanır. Bütövlükdə isə Hidayətin ömür yolu və yaradıcı fəaliyyəti Azərbaycan ədəbiyyatının, teatr sənətinin və ümunən Azərbaycan mədəniyyətinin milli bədii sərvətidir. Böyük mütəfəkkir Mirzə Fətəli Axundov söyləyirdi ki, "Dünyada insan üçün ən böyük ləzzət yaxşı ad qoyub getməkdir ki, belə bir adı da yaxşı əməllərin müqabilində əldə etmək olar" (M.F.Axundov). Haqqında söhbət açdığım qəhrəmanımın yaxşı əməllərinin nəticəsi olan, bizə bəxş etdiyi yazılarında, çıxışlarında, tutduğu qətiyyətli mövqeyində də dünyaya qlobal baxışının tərənnümünün təzahürü, mənə, onun insanziyalı nümunəsi olmağımıza əsas verir və bütün araşdırmalar bu fikri təsdiqləyir.

**Məhz ona görədir ki, Hidayət müəllim haqqında düşünərkən, yuxarıda da qeyd etdiyim kimi ilk növbədə insanın gözləri önündə Ç.Aytmatov və O.Süleymenov şəxsiyyətlərinin bütövlüyünü xatırladan nəhəng bir şəxsiyyətin obrazı canlanır. Bu obraz, Qeyri-səlis məntiq kəhkəşanında kamilləşən şəxsiyyətin ucalığı, görkəmli Azərbaycan türkünün bütün parametrlərdən görünən parlaq nümunəsi, nəhəng simasıdır.**